**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRLİYİ**

AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, M.Mirqasımov küç.,1A www.health.gov.az
Tel.: (+994 12) 565 32 03 Faks: (+994 12) 493 06 95 e-poçt: office@health.gov.az

"18" 07. 2018 il №54

## ƏMR

Bakı şəhəri

**"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müəssisələrinin 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq tədbirləri barədə"**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müəssisələrinin 2018-2019-cü illərin payız-qış mövsümündə istilik ilə təchiz olunması, elektrik enerjisi ilə dayanıqlı təminatı və yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1.Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisinə, şəhər və rayon səhiyyə idarə və şöbələrinin müdirlərinə, Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrin rəhbərlərinə və rayon mərkəzi xəstəxanalarının baş həkimlərinə tapşırılsın:

1.1. 2018-ci il sentyabr ayının 15-nə kimi payız-qış mövsümü ilə əlaqədar təsərrüfat sahəsində görüləcək işlərin müəyyənləşdirilməsi, aşkar edilən nöqsanların aradan qaldırılması üçün tədbirlər planı hazırlanmaqla cavabdeh şəxslərin təyin edilməsi;

1.2. qazanxana maşinistləri ilə (ocaqçılarla) əməyin mühafizəsi sahəsində plandankənar təlimatın keçirilməsi;

1.3. yalnız xüsusi kurs keçmiş, işə buraxılış vəsiqəsi olan və hər il əməyin mühafizəsi və texniki təhlükəsizlik sahəsində bilikləri yoxlanılan ocaqçıların işə buraxılması;

1.4. şöbələrdə, kabinetlərdə, təyinatından asılı olmayaraq bütün iş sahələrində yanğın təhlükəsizliyi qaydalarının tələblərinə əməl edilməsi;

1.5. qeyri standart və istifadəyə yararsız olan odun və qaz sobalarından, elektrik qızdırıcılarından istifadəsinin qadağan edilməsi;

1.6.tüstü borusunun və bacasının qurumdan təmizlənməsinin təmin edilməsi;

1.7.qazanxanada nəzarət-ölçü cihazlarının yoxlanılması;

1.8. qaz təsərrüfatına cavabdeh şəxsin Azərbaycan Respublikası Energetika Nazirliyi Dövlət Qaz Nəzarəti və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyində "Qaz təsərrüfatında təhlükəsizlik qaydaları " ilə əlaqədar biliklərinin yoxlanılması;

1.9.müəssisənin ehtiyat elektrik enerjisi mənbəyi olan dizel generatorlarına texniki xidmətin mütəmadi olaraq həyata keçirilməsi;

2. 2018-ci ilin noyabr ayının 1-nə kimi payız-qış mövsümünə hazırlıq işlərinin yerinə yetirilməsi barədə Səhiyyə Nazirliyinin Səhiyyə obyektləri şəbəkəsinin inkişafının planlaşdırma şöbəsinə məlumat verilsin.

3.Əmrin icrasına nəzarət Səhiyyə obyektləri şəbəkəsinin inkişafının planlaşdırma şöbəsinin müdiri Əli Abbasova həvalə edilsin.

4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 18.09. 2017-ci il tarixli 63 nömrəli əmri (4-cü bəndi istisna olmaqla) qüvvədən düşmüş hesab edilsin.

**Nazir müavini** **Elsevər Ağayev**